# Professor Nəsiman Yaqublunun hazırladığı "Qərbi Azərbaycanlılar: Unudulmuş irs" kitabı nəşr edilib




Professor N.Yaqublunun hazırladığı "Qərbi Azərbaycanlılar: Unudulmuş irs" kitabı nəşr edilib.Kitab Azərbaycan Respublikası Prezidentinin Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinə təqdim olunmuş layihə əsasında çap edilib.

Kitabda əsasən mühacirətdə yaşamış Qərbi Azərbaycandan olan Əkbərağa Şeyxülislamovun, Məhəmməd Sadıq Aranın, Əli Aranın, Tağı Aranın, Həsən Zeynallının həyat və fəaliyyətləri araşdırılmaqla yanaşı onların arxiv və kitabxanalardan toplanılmış, ictimaiyyətə geniş məlum omayan yazıları da oxuculara təqdim edilir.

Kitabın tərtibatçısı və redaktoru N.Yaqublu görkəmli filosof alim, sovet rejiminin qurbanı olmuş akademik Heydər Hüseynov haqqında olan araşdırma - məqaləsini də kitaba daxil etmişdir.

**Ədəbiyyat qəzeti.- 2023.- 2 dekabr, № 46. - S. 13.**